*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 16 may 2018-ci il № 37 (2253) Qiymıti 25 qəpik

## Ali Baş Komandan İlham ƏLİYEV:

# Bizim hərbi gücümüz gündən-günə artır

*Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 95 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə Prezident, Ali Baş Komandan İlham Əliyevin dediyi "Azərbaycan Ordusu regionda ən güclü ordular sırasındadır. Orduların gücünü müəyyən edən aparıcı reytinq agentlikləri Azərbaycan Ordusunu 50 güclü ordu sırasında görürlər" sözləri bu reallığın, bu qənaətin təsdiqidir.*



Azərbaycan əsgərinin 2016-cı ilin aprel qələbəsinə, mənəvi-psixoloji vəziyyətinə, təchizatına, nizam-intizamına, vətənpərvərlik ruhuna, döyüş hazırlığına əsaslanan ölkə başçısı çıxışında Azərbaycan Ordusunun Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsinin işğaldan azad edilməsinə, o torpaqlarda Azərbaycan bayrağının dalğalanmasına da toxundu: "Əminəm ki, gün gələcək və Azərbaycan bayrağı bu gün hələ də işğal altında olan bütün torpaqlarda, o cümlədən Şuşada və Xankəndidə... qaldırılacaqdır". Prezident İlham Əliyev Azərbaycan Ordusunun yüksək maddi-texniki bazasına, döyüş hazırlığına, hərbi qulluqçuların peşəkarlığına inamını da bildirdi.

Ölkə Prezidentinin çıxışı bir daha təsdiq etdi ki, Azərbaycan Ordusu həm peşəkarlıq, həm də maddi-texniki bazasının üstünlüyü baxımından bölgədə ən güclüdür. Azərbaycan Ordusunun qələbəsini şərtləndirən mühüm amillər var. Bu amillər işğala son qoyacaq, Azərbaycanın ərazi bütövlüyü təmin ediləcək.

Azərbaycanın ən ağrılı problemi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən də söz açan Prezident İlham Əliyev bu məsələdə prinsipial mövqeyimizin dəyişməyəcəyini bildirdi. Dövlət başçısı qeyd etdi ki, son 15 il ərzində bir çox beynəlxalq təşkilatlarda - BMT Baş Assambleyası, Qoşulmama Hərəkatı, Avropa Şurası, Avropa Parlamenti, İslam Əməkdaşlıq Təşkilatı və digər təşkilatlarda bu münaqişə ilə bağlı bizim mövqeyimizi, ədaləti əks etdirən qərar və qətnamələr qəbul edilmişdir.

Ali Baş Komandan onu da vurğuladı ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi yalnız beynəlxalq hüququn norma və prinsipləri əsasında öz həllini tapmalı, Azərbaycanın ərazi bütövlüyü tam bərpa olunmalı, BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi icra edilməlidir.

Bununla bərabər, Prezident İlham Əliyevin "Azərbaycan torpaqları danışıq predmeti ola bilməz. ...Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu deyil, heç vaxt olmayıb və heç vaxt olmayacaqdır. Azərbaycan xalqı və dövləti heç vaxt imkan verməz ki, Azərbaycan torpağında ikinci erməni dövləti yaradılsın. Əgər kimsə başqa cür fikirləşirsə, hesab edirəm ki, o, əbəs yerə illüziyalarla yaşayır. Azərbaycanın ərazi bütövlüyü tam şəkildə və qeyd-şərtsiz təmin edilməlidir. Bunu ədalət və beynəlxalq hüquq tələb edir. Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir" mötəbər fikirləri tariximizin bugünkü reallığını əks etdirir.

Artıq dünyada hamı bilir ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində bizim mövqeyimiz ədalətli mövqedir, beynəlxalq hüquqa əsaslanan mövqedir və daha çox beynəlxalq dəstək qazanan mövqedir. Prezident xatırlatdı ki, bunu əks etdirən bir neçə önəmli hadisə olmuşdur: "Onlardan biri Dağlıq Qarabağda separatist rejim tərəfindən keçirilmiş qanunsuz "referendum"un dünya ictimaiyyəti tərəfindən tanınmamasıdır. Həm qonşu ölkələr, həm Avropa ölkələri, Avropa İttifaqı, beynəlxalq təşkilatlar "referendum"un tanınmaması haqqında birmənalı şəkildə ciddi bəyanatlar vermişlər. Bu bəyanatlar bir daha onu göstərir ki, bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır və bu dəstək getdikcə daha da artır. Azərbaycanın həm beynəlxalq müstəvidə, həm də regionda kifayət qədər imkanları var. Bizim iştirakımız olmadan bölgədə heç bir layihə icra edilə bilməz. Ermənistanda bu reallığı nə qədər tez başa düşsələr, münaqişə o qədər də tez həll edilər və bölgəmizdə sülh təmin olunar".

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 95 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdəki çıxışında toxunulan məsələlər deməyə əsas verir ki, Prezident İlham Əliyevin qətiyyətlə apardığı xarici siyasət dövlətimizin milli maraqlarına tam cavab verməklə, respublikamızın beynəlxalq arenada imicinin daha da güclənməsinə xidmət edir. Azərbaycan Respublikasının malik olduğu iqtisadi potensial, həyata keçirilən kompleks islahatlar xalqımızın milli maraq və mənafelərinin daha etibarlı səviyyədə təmin edilməsinə, Azərbaycan dövlətinin, Azərbaycan Ordusunun sürətli inkişafı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində uğurlu nəticə əldə ediləcəyinə böyük inam yaradır. Prezident, Ali Baş Komandan İlham Əliyevin dediyi fikirlər Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasının etibarlı təminatı Azərbaycan Ordusuna verilən ən yüksək qiymətdir.

**"Azərbaycan Ordusu"**

# Müdafiə naziri: Azərbaycan Ordusu genişmiqyaslı döyüş əməliyyatlarına tam hazırdır



Mayın 12-də Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə xidməti müşavirə keçirilib.

Müdafiə nazirinin müavinləri, qoşun növləri komandanları, nazirliyin baş idarə, idarə, xidmət rəisləri, eləcə də birlik komandirlərinin iştirakı ilə keçirilən müşavirəyə videobağlantı vasitəsilə cəbhə bölgəsində yerləşən birləşmə komandirləri və digər məsul zabitlər də cəlb olunub.

Ali Baş Komandanın ümummilli liderimiz Heydər Əliyevin 95 illik yubileyinə həsr olunmuş mərasimdəki nitqində Dağlıq Qarabağ münaqişəsi və Azərbaycan Ordusunun hərbi potensialı haqqında söylədikləri fikirlərə əsaslanaraq, Müdafiə naziri vəzifəli şəxslər qarşısında konkret tapşırıqlar qoyub.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, general-polkovnik Zakir Həsənov Ermənistandakı hakimiyyət dəyişikliyindən sonra bu ölkənin müxtəlif səviyyəli rəsmi şəxsləri, o cümlədən yeni baş nazirin münaqişə ilə bağlı məsuliyyətsiz çıxışlarına da münasibət bildirib.

Ermənistanın hərbi-siyasi rəhbərliyini xəbərdar edən Müdafiə naziri bildirib ki, düşmənin bu cür hərəkətləri qəbuledilməzdir və Azərbaycan Ordusu genişmiqyaslı döyüş əməliyyatlarına tam hazırdır.

Nazir cəbhədəki mövcud vəziyyəti geniş təhlil edərək düşmənin ön xətdə və müdafiəsinin dərinliyindəki fəaliyyətlərini daim nəzarətdə saxlamaq, ehtimal olunan addımlarına hər an hazır olmaq, eləcə də onun mümkün təxribatlarının qarşısını dərhal almaq məqsədilə qətiyyətli tədbirlər görülməsi barədə əmr verib.

General-polkovnik Zakir Həsənov Silahlı Qüvvələrin yaradılmasının 100 illik yubileyi ilə bağlı təntənəli tədbirlərin təşkili və yüksək səviyyədə keçirilməsi ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamından irəli gələn tələbləri rəhbər heyətə çatdıraraq cavabdeh şəxslərə müvafiq göstərişlər verib.

# Azərbaycanın Müdafiə naziri Misirin ölkəmizdəki səfiri ilə görüşüb



Mayın 15-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Misir Ərəb Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Adel İbrahim ilə görüşüb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, nazir Azərbaycan ilə Misir arasında mövcud ənənəvi dostluq və əməkdaşlıq münasibətlərinin dövlətlərimizin maraqlarına uyğun olaraq daim inkişaf etdiyini və hərbi sahədə əməkdaşlığın genişləndirilməsinin vacibliyini vurğulayıb.

Regiondakı hərbi-siyasi vəziyyətdən danışan general-polkovnik Zakir Həsənov diqqətə çatdırıb ki, Ermənistanın işğalçılıq siyasəti bu gün də davam edir və danışıqların uzadılması bölgədəki şəraitə mənfi təsir göstərir.

Səfir də öz növbəsində Misirin Azərbaycan ilə əlaqələrin daha da genişləndirilməsinə önəm verdiyini və diplomatik fəaliyyəti müddətində ölkələrimiz arasında dostluq münasibətlərinin, eləcə də hərbi əlaqələrin inkişaf etdirilməsinə töhfəsini vermək üçün səylərini əsirgəməyəcəyini bildirib.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

*15 may 2018-ci il.*

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 87 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Voskevan kəndində və adsız yüksəkliklərdə, İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonunun Qaymaqlı, Quşçu Ayrım, Qızılhacılı kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Tağıbəyli, Şıxlar, Kəngərli, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qərvənd, Qaraxanbəyli, Qorqan, Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Müdafiə naziri bir sıra hərbi obyektlərin açılışında iştirak edib



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti hərbi təyinatlı bir sıra obyektlərin açılışında iştirak ediblər.

Müdafiə naziri müasir tələblərə cavab verən yanacaq sürtgü materialları anbarı, avtomobillərin texniki təmiri və qulluğu məntəqəsinin açılışında iştirak edib, burada yaradılan şəraitlə tanış olub və müvafiq tapşırıqlarını verib.

Sonra general-polkovnik Zakir Həsənov hərbi hissələrin birində yeni inşa edilən yeməkxananın açılışında iştirak edərək şəxsi heyətlə birlikdə nahar edib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti, foto gizir Elmar ZEYNALOVUNDUR**

# Azərbaycan-NATO əlaqələrinin inkişaf perspektivləri müzakirə olunub

Belçikaya işgüzar səfəri çərçivəsində xarici işlər naziri Elmar Məmmədyarov NATO baş katibinin Cənubi Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Ceyms Apparturay ilə görüşüb.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan və NATO arasında tərəfdaşlığın inkişafından məmnunluq ifadə olunub.

Ceyms Apparturay Əfqanıstanda sülhün bərqərar olmasını hədəfləmiş "Qətiyyətli Dəstək Əməliyyatı"na və Əfqanıstan Milli Ordusu Etimad Fonduna texniki və maddi dəstəyinə görə Azərbaycana təşəkkürünü bildirib. Habelə NATO-nun Müttəfiq Qüvvələrinin Avropada Ali Baş Komandanı və Rusiya Federasiyası baş qərargah rəislərinin Bakıda keçirilmiş görüşləri yüksək qiymətləndirilib.

Görüş əsnasında regional məsələlər ətrafında fikir mübadiləsi aparıldı. Nazir Elmar Məmmədyarov bildirib ki, Ermənistan tərəfindən Azərbaycan ərazilərinin işğal altında saxlanılması və Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərində qeyri-qanuni mövcudluğu regional sülh və təhlükəsizlik üçün ciddi təhdid olaraq qalır.

Söhbət zamanı, həmçinin Azərbaycan-NATO münasibətlərinin inkişaf perspektivləri, beynəlxalq gündəlikdə duran məsələlər barədə fikir mübadiləsi aparılıb.

# Təmas xəttində növbəti monitorinq keçiriləcək

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, mayın 16-da Xocavənd rayonu ərazisində yerləşən Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinqin keçirilməsi planlaşdırılır.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Mixail Olaru və Martin Şuster keçirəcəklər.

Ermənistan tərəfindən isə monitorinqi şəxsi nümayəndənin səhra köməkçiləri Oqnyen Yoviç, Gennadi Petrika və Saymon Tiller keçirəcəklər.

# Səngərləri sərhədlərə köçürəcəyik!..



Hərbi mükəlləfiyyəti ifadə edən əsgər kəlməsinin bir yozumu da xarakterdi - əsgər kimi mətinsənsə, dəyanətlisənsə, dövlətə, dövlətçiliyə sədaqətlisənsə, müharibə şəraitində daha qətiyyətli vətəndaş olmaqla Vətənə xidmət edirsənsə, Vətənin əsgərisən....

Başlanğıcı əsgər ürəyi olan Vətəndə müharibəyə görə torpağa düşən səngərlər sərhəd deyil, onların ömrü qələbə gününəcəndi. Səngərin varlığı səngərsiz sərhədlər üçün xidmət edən əsgərin ruhunu sıxır. Əsgərin belə sıxıntılarını ruhumuzda hiss edirik. Bu sıxıntılardan qurtarmaq üçün Ali Baş Komandanın əmriylə torpaqlarımızı işğaldan ictimaiyyətə arxalanan əsgərlərimiz azad edəcək. İctimaiyyət bizik - mən, sən, onlar. Vətənə xidmət etməliyik, əsgərləşməliyik ki, güvəndiyimiz əsgərlər bizə daha dönməzliklə arxalansın...

Soyuqda-sazaqda səngərmi əsgəri isidir, səngərləri sərhədlərə köçürmək amalıyla xidmət edən əsgərin nəfəsimi səngəri? Səngərə dönən dağ-daş bilər, müharibəyə görə torpağa düşən səngərlər bilər - Vətən bilər. Əsgərə oğul deyən Vətən işğal olunmuş torpaqlarımızın harayı varlığını titrədənə də, torpaqların yaralarının sızıltısını, giziltisini ruhunda hiss edənə də, əsgərin Vətən sevgisini yaşanılan, yaşanılacaq aylara-illərə göyqurşağı bilənə də, yaşam fəlsəfəsi Vətən olana da, 2016-cı ilin aprel döyüşlərinə Böyük Qələbənin başlanğıcı deyənə də, zəfər yolunun əsgərin döyüş növbətçiliyindən başladığına əmin olana da, səngərlərin o üzünə döyüş növbətçiliyi aparanların ürəyinin gözüylə baxanlara da əsgər deyir Vətən. "Vətənə xidmət etməlisən, Vətən üçün əsgər olmalısan". Bu xatırlatma dövlətçiliyimizin xatırlatmasıdı. Dədə Qorqudun, Qazan xanın, ... , Xətainin, ... , Cavad xanın , ... , şəhidlərimizin xatırlatmasıdı...

Ön xətdə - səngərlərdə döyüş növbətçiliyinə gedən, döyüş növbətçiliyindən qayıdan əsgərlərlə kəlmələşənlərin qüruru bir boy da dikəlir. Əsgərlərin baxışlarının izinə düşən baxışları səngərlərin o üzünə yönəlir. Əsgərlərin ürəyindən keçənləri Dədə sözü - Vətənin sözü bilir, sevgilərlə: "Lələtəpənin, Bayraqtəpənin sağında-solunda ot göyərtmiş yollar sizi Cıdır düzünə çatdırsın, Azərbaycan əsgəri! Səngərləri yaxın vaxtlarda dövlət sərhədlərimizə köçürün. Köçürün ki, dağıdılmış evlərimiz daş-daş dikəlsin, söndürülmüş ocaqlarımız alışsın!" - deyir. Ürəyini tellləndirən kəlmələrin eynini yerin göyə, göyün yerə sədaqəti biçimində dinləyir: "Dağıdılmış evlərimiz daş-daş dikələcək, söndürülmüş ocaqlarımız alışacaq!..".

Tovuzda, Adsız yüksəklikdə əsgər Səlim Həsənovdan eşitdiklərim ürəyimi dağa döndərmişdi: "Bizdən əvvəl xidmət edənlər "Ürəyimi bu dağlarda qoyub gedirəm. Əsgər olduğumu mülki həyatda da unutmayacam. Elə biləcəm ki, Ali Baş Komandan döyüş əmri verənəcən məzuniyyətə buraxılmışam...". Mən də, əsgər yoldaşlarım da qalib əsgər kimi tərxis olunmaq, qələbənin sevincini əsgər kimi yaşamaq istəyirik".

Səlim Həsənovun da, digər əsgərlərin də baxışlarında dönməz bir sevgi görmüşdüm. Bu sevgi Vətənə sevgiydi. Ona görə belə qətiyyətliydi, ona görə belə bənzərsiziydi, ona görə baxışların sağollaşanacan əsgərlərin baxışlarından üzülməmişdi.

Hər görüşəndə ürək yanğısıyla, yanğı içində qürurla şəhidlərimizdən danışırıq. Əsgərlərimiz qardaşı şəhid olan bacının qardaşı kimi, oğlu şəhid olan ananın oğlu kimi, atası şəhid olan uşağın əmisi-dayısı kimi danışır. Onda Məhəmməd Hadinin bir kəlamını da xatırladıram: "Məfkurə yolunda tökülən qan hədər getmir". Belə xidmət edən əsgərlərin əhatəsində Vətənə xidmətin gərəkliyini necə ömür düsturu bilməyəsən, necə əsgərləşməyəsən? Duyğusallıqla, dönməz istəklə, murazla, niyyətlə deyilən "Qalib əsgər olmaq istəyirəm!" - kəlmələri eşidənin yaşantılarının işığına, gözlərinin nuruna, ürəyinin təpərinə dönməyə bilərmi?

Bağanis Ayrım, Ağdaban, Meşəli, Qaradağlı, Xocalı faciələrinin kəsilməz harayını eşitmək də Vətənə xidmətdi, eşidib əsgərləşmək də...

Gədəbəydə dəniz səviyyəsindən 3000 metr yüksəklikdə əsgərlərin əhatəsində söz sözə söykək olmuşdu, söz sözü çəkmişdi. O ucalıqda ilahilik nuruna sığınan mətləblər bir məcrada birləşmişdi: "Torpaqlarımız işğaldan azad edilməlidi! Ali Baş Komandanın əmriylə biz azad edəcəyik. Bizdən sonra əsgərlər dövlət sərhədlərimizdə xidmət edəcək". Bu qətiyyəti aprel döyüşlərinin davamı olacaq döyüşlərin - Böyük Qələbənin uvertürası bilmişdim. Bu inam indi daha kəsərlidi, daha dönməzdi. Onda əsgərlərimizə birinci Qarabağ müharibəsində, Ağdərə ətrafında gedən döyüşlərdə olmuş bir hadisəni xatırlatmışdım:

Əks-hücum səngimişdi. Kapitan Yusif Mirzəyev sövq-təbii sağ tərəfdə vuruşan əsgərə baxmışdı. Əsgər atışmırdı. Tələsik onu səsləmişdi. Cavab gəlməmişdi. Yusifin qəlbinə daman dammışdı: əsgər şəhid olub...

Rəhimin sol əli sinəsinə uzalı qalmışdı. Barmaqları Azərbaycanımızın üçrəngli bayrağına örtük olmuşdu. Yusifin gözləri dolmuşdu. Dodaqlarını dişləriylə sıxmışdı. Rəhimin üstünə döşənmişdi. İçin-için ağlamışdı. Başını qaldıranda başqa əsgərləri də ətrafında görmüşdü. Hamısının yanağını göz yaşları yandırırdı. Hamısının əlində Azərbaycanımızın bayrağı dalğalanırdı; hamısı döyüşə bayrağımızla qoşulubmuş, hamısı bayrağımız eşqinə vuruşurmuş, hamısı bayrağımızı şəhidlik kəfəni bilirmiş...

Xatırlatmışdım və "Dövlət bayrağının işığında vuruşanlar məğlub olmur, ya qələbə qazanır, ya şəhid olur. Azərbaycan əsgəri kimi..." - demişdim. Tovuzda Adsız yüksəklikdə əsgərdən eşitdiyim "Biz Böyük Qələbənin əsgəri olacağıq" - inamı bu ucalıqda uca mətləblərin səyyarəsinə dönmüşdü. "Mübarizlərimiz, Raquflarımız, Samidlərimiz, Çingizlərimiz, ... minlərlədi. Mübarizləşməyə, Çingizləşməyə hər birimiz hazırıq!" - demişdilər. Belə işıqlı kəlmələri eşidənlər necə əsgərləşməyə bilər? - əsgərlərin əhatəsində əsgərləşməmək mümkün deyil. Əsgərləşirsən və bu qürur sənin ömürdaşına dönür. Ruhun əsgər ruhuna çataqlıdırsa, səngərlər, döyüş növbətçiliyi aparanlar bəzən "gözündən uzaq olsa da, könlündən iraq" deyilsə, əsgərsən, Vətənə xidmət edirsən, əsgər səni də Vətənin əsgəri bilir...

Birinci Qarabağ müharibəsində Ağdamda Şirin Mirzəyevdən, Füzulidə Rasim İbrahimovdan, Tərtərdə Vəzir Orucovdan, Ağdərədə Yusif Mirzəyevdən, ...eşitdiklərimin eynini səngərlərdə də eşitmişəm: kürəyində xalqın nəfəsini hiss edən əsgər daha güclü olur. Onda bir daha əmin olmuşam ki, əsgər sənin ruhunun əlini çiynində, nəfəsini kürəyində hiss edirsə, onların sırasındasan. Bu, Vətənə xidmət deməkdi...

2016-cı ilin aprelində yeniyetmələr də döyüşə can atırdı, çağırışçılar da, yaşlılar da, Qarabağ müharibəsi əlilləri də. Bu coşqu Azərbaycan əsgərinin döyüş ruhunu, qələbə əzmini kükrətmişdi; aprel döyüşləri kimi tarixləşən Böyük Qələbə qazanıldı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu döyüşlər haqqında dediyi "Aprel döyüşləri dərsliklərə salınmalıdır" kəlamı vətənsevərləri də əsgərləşdirib. İndi çoxumuz özünü ruhən əsgərlərin sırasında hiss edirik; jurnalist-əsgərlər də, şair-əsgərlər də, həkim-əsgərlər də, mühəndis-əsgərlər də,...ruhən Böyük Qələbəni qazanacaq əsgərlərin sırasındadı. Hamı o sırada olmalıdı. Azərbaycançılığımızın tələbidi bu. Əsgərlər Murovdağda da belə dedilər, Alagöllərdə də, Tovuzda, Qazaxda, Ağdamda da belə deyirlər. İnamla, qətiyyətlə deyirlər, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun qürurla dediklərini xatırlayaraq deyirlər: "... aprel zəfərimiz orduda yüksək vətənpərvərlik tərbiyəsinin nəticəsidir və döyüş ruhunun qələbəsidir"...

Əsgərlərin əhatəsində Vətən ünvanlı söhbətlər vətənpərvərlik dərsidi. Döyüş növbətçiliyi aparanlardan vətənpərvərlik dərsi alanlar, əlbəttə ki, Vətənə xidmət etməklə Vətənin əsgəri olacaq; əsgərdən yazanlar da Vətənin əsgəridi, düşüncələri yazılanların işığıyla nurlananlar da. Azərbaycan əsgərinin yazdığı tarixi yaddaşlara köçürən, düşüncələrə hopduran mətbuatımız həm də əsgərləşdirmə missiyasının icraçısıdı; mətbuatımız Vətənə xidmət edir...

İkinci Kəlbəcər əməliyyatında Qamışlı körpüsü yaxınlığında ağır döyüşlər gedirdi. Sağ cinahda atəşin dayandığını hiss edən Sahib Aslanov o səmtə baxmışdı: Yaşar qan içindəydi. Yan-yörəsinə sancılan güllələrə məhəl qoymadan özünü ona yetirmişdi. Yaşar şəhid olmuşdu. Şəhid dostunu kaha misallı qayalığa çəkib daldalamışdı. "Döyüşdən sonra çıxardaram," - pıçıldamışdı. Pıçıltısını kimsə eşitməmişdi...

Tək qalmışdı. Sağ - düşmən, sol - düşmən, ön-arxa - düşmən. Qayalıq massivi keçə bilsəydi, ölümdən də betər olan əsirliyin can sitemindən, mənəvi sıxıntılarından qurtara bilərdi. Qayalığı keçib dərəyə enməyi qərara aldı. Güllələri azalmışdı. Əl qumbarasını Yaşar yaralanan anlarda düşmənə tərəf atmaq istəmişdi. Atmamışdı. Buna ehtiyac qalmamışdı, yaxınlaşan dörd erməninin dördünü də öldürmüşdü. İndi qumbara ona nə qədər gərəkliydi...

Əsgər dostunu ölümdən xilas etmək istəmişdi. Ölümə gücü çatmamışdı, düşmən əlinə keçməməsi üçün nəşini daldalamışdı. Sonra ...sonra düşmənlərin içindən çıxa bilmişdi. Neçə gün Murovdağın qar qalanmış sinəsiylə sürünə-sürünə, səntirləyə-səntirləyə irəliləmişdi, olmazın əziyyətlərə qatlaşmışdı...

"İgidliyinə layiq dəfn edə bilmədik səni, qardaş" - illərdi bu acı təəssüf Sahibin ürəyinə yük olub. Bu təəssüfü Sahib kimi yaşamaq da Vətənə xidmətdi, yaşayıb əsgərləşmək də...

2016-cı ilin aprelində Talış kəndi yaxınlığında gedən döyüşdə əsgər Vahid Əliyev yaralanmışdı. Əsgər Kamil Həsənov atışa-atışa ona yaxınlaşmışdı, nə qədər təhlükəli olsa da, əsgər dostunu döyüşün içindən çıxartdığı anda özü də ağır yaralanmışdı. Hospitalda özünə gələndə soruşmuşdu: "Vahid sağdımı?". Əsgər dostluğudu bu. Bu hadisəni eşidən, bu anların kövrəkliyini yaşayan əsgərləşməyə bilərmi? - yox, bunu bacarmaz. Qətiyyən bacarmaz; Kamilin son nəfəsini duymaq da Vətənə xidmətdi, duyub əsgərləşmək də...

Murovdağda xatırladığım, əsgərlərə xatırlatdığım bu kövrəklik ruhumuzu titrətmişdi. Əsgərlərin əlləri avtomatın qundağını sıxmışdı. Baxışları nəhayətsizliyə yönələn əsgər Valeh Səmədov "Azərbaycan əsgərinin gücü həm də əsgər dostluğundadı..." - demişdi. Sağ əlim ahəstəcə yanımdakı əsgərin çiyninə enmişdi. "Azərbaycan əsgərinin dostluğu yaşarı dostluqdu, ölümsüz dostluqdu..." kəlmələrinin istisi, hərarəti qışın sazağını sındırmışdı; qışın sazağını sındırmağa qadir olan kəlmələri könülə köçürmək də Vətənə xidmətdi, köçürüb əsgərləşmək də...

Mübariz İbrahimovun qəhrəmanlığı Mübarizləşmə təyini yaratdı. Çingiz Qurbanovun qəhrəmanlığı Çingizləşmə. "Hər sadə, mürəkkəb cümləsinin əzəl mübtədası" (S.Vurğun) Vətən olanlar da, Mübarizləşən, Çingizləşən əsgərlərimiz də ordu - ictimaiyyət münasibətlərini Vətənə xidmət bilir...

Ötən ilin mayında Müdafiə nazirinin əmriylə xidmət etdiyi posta Azərbaycanın Milli Qəhrəmanı Çingiz Qurbanovun adı verildi. Salman kişiylə həmin postdaydıq. Bir vaxtlar oğlunun ayaq izləri düşmüş cığırla irəliləmək atanı kövrəltmişdi. "Mənim oğlum idin, indi Vətənin oğlusan. Bir qardaşın vardı, indi minlərlə qardaşın var..." - atanın baxışları obeliskdən üzülmürdü. Ata həmin qaynar baxışlara, həmin incə, munis təbəssümə sarı əyildi: "Vətən üçün yaşanılan ömür dəyərli ömürdü, oğul. Dəyərli ömür yaşadın..." - qəhərlə, qəhər qarışıq qürurla dedi...

Bir vaxtlar oğlunun müşahidə apardığı yerdə dayanan Salman kişi. "Səni əvəz edirəm, oğul. İcazə versələr, döyüşdə də əvəz edərəm", - deyirdi elə bil. Yumruqları düyünlənmişdi. Bir əli qürurun, bir əli kövrəkliyin əlində olan bu səssiz mükalimələşmənin mətləbini duymaq da Vətənə xidmətdi, duyub əsgərləşmək də...

...Vətənə xidmət edirik, Vətənin əsgəriyik.

Sənə xidmət edirik, Vətən! Əsgərlərin döyüş ruhunu, qələbə əzminin əsgəriyik - sənin əsgərinik, Vətən! Yaxın vaxtlarda əsgərlərin Ali Baş Komandanın əmriylə səngərləri sərhədlərimizə köçürəcək!..

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**

*Müdafiə Nazirliyi və Mətbuat Şurasının birgə təşkil etdiyi "Azərbaycan Silahlı Qüvvələrinin 100-cü ildönümünə həsr olunmuş "Hər birimiz Vətənə xidmət edirik" mövzusundakı yazı müsabiqəsinə təqdim edilir*

# Azərbaycan Ordusunda andiçmə mərasimi keçirildi



*Mayın 10-da Müdafiə Nazirliyinin tabeliyində olan hərbi hissə və birləşmələrdə gənc əsgərlərin andiçmə mərasimi keçirilib. Əlahiddə Ümumqoşun Ordu, hərbi birliklər, Hərbi Hava Qüvvələri, Hərbi Dəniz Qüvvələri, Raket və Artilleriya Qoşunları, eləcə də digər təminat hərbi hissələrində təşkil edilmiş mərasimlərdə ümummilli liderimiz Heydər Əliyevin və torpaqlarımızın ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət himni ifa edilib və tədbir açıq elan olunub. Sonra gənc əsgərlər təntənəli surətdə hərbi andı qəbul ediblər. Andiçmə mərasimlərində hərbi hissələrin komandanlığı, şəhid ailələrinin üzvləri, yerli icra orqanları, ictimaiyyət nümayəndələri, veteranlar və əsgər valideynləri iştirak ediblər.*

Hərbi xidmətə başlayan gənc əsgərlər hərbi and içir. Bu, dövlətçiliyə, dövlətə, Vətənə sədaqət andıdı. Andiçmə inandırmaqdı; gənc əsgər komandirlərini, valideynlərini, ictimaiyyət nümayəndələrini inandırır ki, hərbi nizamnamələrin tələblərini böyük məsuliyyətlə yerinə yetirəcək, nümunəvi xidmət edəcək. Belə bir gün hərbi and içən əsgərin də, ata-ananın da, bacı-qardaşın da, ictimaiyyət nümayəndələrinin də yaddaşından silinmir...

"N" hərbi hissəsində keçirilən andiçmə mərasimində polkovnik-leytenant Rasim Manafov çıxış edərək dedi ki, hər bir gənc əsgərin döyüş hazırlığı qısa müddətdə formalaşdırılır, malik olduğu mənəvi-psixoloji hazırlığı söhbətlərlə, bu və ya digər tədbirlərlə yüksəldilir. İnanırıq ki, bu gün hərbi and içəcək gənc əsgərlər döyüş növbətçiliyini böyük məsuliyyətlə aparacaq, komandirlərinin əmrlərini, tapşırıqlarını vaxtında və sözsüz yerinə yetirəcəklər...

Müdafiə Nazirliyinin əməkdaşı, Əməkdar İncəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü Abdulla Qurbani çıxışında qeyd etdi ki, hərbi mükəlləfiyyətə görə hər bir gənc hərbi xidmətə çağırılır. "Xidmətə başlayan gənc əsgər hərbi and içir. Yaxın keçmişdə gənc əsgərlər sırasında Mübariz İbrahimov da hərbi and içmişdi, Çingiz Qurbanov da. Hər ikisi Azərbaycanın Milli Qəhrəmanı kimi xidmətə başlayanlara örnəkdir. 2016-cı ilin aprel döyüşlərində qəhrəmanlıq göstərənlər, şəhid olanlar Vətənə sədaqət andına necə sadiq qaldıqlarını təsdiqlədilər. İnanırıq ki, bu gün and içəcək gənc əsgərlər də Ali Baş Komandanın, Müdafiə Nazirliyinin rəhbərlərinin əmr və göstərişlərini əsas tutaraq qəhrəmanlıq tarixi yazmış əsgərlər kimi xidmət edəcəklər..."

Gənc əsgər anası Növrəstə Nəzərova çıxışında yeniyetmələrin əsl vətəndaş kimi formalaşmasında ailə ilə məktəbin birgə fəaliyyətindən, əldə edilənlərin hərbi xidmətdə davam etdirilməsindən danışdı:

- Ailə ilə məktəbin nəyə nail olduğu hərbi xidmətdə təsdiqlənir. Biz nə etmişik, ona dəyəri siz verəcəksiniz, hörmətli zabitlər. İnanırıq ki, oğullarımız sizə də, bizə də başucalığı gətirəcək.

Arzu Qasımova çıxışında əsgərlər üçün yaradılan yüksək şəraitə görə Ali Baş Komandana, Müdafiə nazirinə təşəkkürünü bildirdi, toplaşanları əmin etdi ki, oğlu da daxil olmaqla, bu gün hərbi and içən gənc əsgərlər layiqincə, nümunəvi xidmət edəcəklər.

Gənc əsgərlər adından çıxış edən Şamo İsmayılbəyli bu günün sevincinin heç zaman unudulmayacağını qeyd edərək dedi:

- Ordumuz güclüdür, Ali Baş Komandanın əmri ilə torpaqlarımızı işğaldan azad etməyə qadirdi. Çox istərdik ki, biz də həmin qalib əsgərlərin sırasında olaq. Valideynlərimizi, komandirlərimizi əmin edirəm ki, hər birimiz nizamnamələrin tələbləri səviyyəsində xidmət edəcəyik.

Tədbir təntənəli keçidlə başa çatdı.

* * *

"N" hərbi hissəsində təntənəli andiçmə mərasimi keçirildi. Həmin gün ikiqat sevinc yaşanıldı. Tədbir iştirakçıları ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü, həmçinin andiçmə mərasiminin sevincini yaşayırdılar. Mərasim iştirakçıları əvvəlcə Ulu Öndərin hərbi hissədə yerləşən büstü önünə gül dəstələri qoyaraq, xatirəsini dərin ehtiramla yad etdilər.

Tədbiri giriş sözü ilə açan polkovnik Qurban Qurbanov ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətindən geniş məlumat verdi. Andiçmə mərasiminin Ulu Öndərin doğum günü ilə eyni vaxta təsadüf etdiyini vurğulayan zabit müasir ordumuzun formalaşmasında dahi rəhbərin misilsiz xidmətlərindən danışdı: "Əsası Ümummilli Lider tərəfindən qoyulan Azərbaycan Ordusu ölməz liderin siyasi kursunun layiqli davamçısı, ölkə başçısı, Ali Baş Komandan İlham Əliyevin diqqət və qayğısı nəticəsində daha da inkişaf edərək regionun ən güclü ordusuna çevrilib. Bu gün böyük iftixar hissi ilə deyə bilərik ki, Azərbaycan Ordusu dövlət müstəqilliyimizin ən dəyərli töhfələrindən biridir".

Çıxışını sona çatdıran polkovnik Q.Qurbanov andiçmə mərasiminə başlanması üçün gənc əsgər bölməsinin komandirinə göstəriş verdi. Nizami yerişlərlə sıra meydanının mərkəzinə gələn gənclər ordu sıralarına daxil olaraq, Vətənimizə və onun xalqına sadiq qalacaqlarına, ərazi bütövlüyümüzün və suverenliyimizin müdafiəsinə hər an hazır olacaqlarına and içdilər. Hərbi andı qəbul edən əsgərlər tribuna qarşısından təntənəli marşla keçdilər.

Polkovnik Mehman Kərimov çıxış edərək hərbi andı qəbul edən əsgərləri və onların valideynlərini təbrik etdi: "Əziz valideynlər, övladlarınızın hərbi and içməsi münasibəti ilə hamınızı təbrik edir, onları Vətənə sədaqətli oğul kimi tərbiyə etdiyinizə görə sizə öz minnətdarlığımızı bildiririk. Artıq övladlarınız bizlərə əmanətdir. Onlar Vətənimizin müdafiəçisi kimi müqəddəs vəzifəni yerinə yetirəcəklər. Xidməti dövründə onlara silah və texnikalardan, döyüş hazırlığından və digər hərbi fənlərdən dərslər keçiriləcək. Bu dərslərdə övladlarınız peşəkar zabitlər tərəfindən torpaqlarımızın azadlığı uğrunda döyüşə atılmağa daim hazır olan, bacarıqlı, cəsur, qorxmaz əsgərlər kimi formalaşacaqlar".



Çıxışını davam etdirən zabit əlamətdar gün münasibəti ilə hərbi andı qəbul edən əsgərləri təbrik edərək dedi ki, hərbi xidmət keçmək Azərbaycanın vətənpərvər oğullarının şərəf borcudur, sizə hərb işinə dərindən yiyələnməyi, komandir və rəislərin əmr və tapşırıqlarını vaxtında və sözsüz yerinə yetirərək bu borcun öhdəsindən layiqincə gəlməyi tövsiyə edirəm.

Əsgər Fərid Paşayev gənc əsgərlər adından təbriklərə qoşularaq qeyd etdi ki, bu gün onun və əsgər yoldaşlarının həyatında ən əlamətdar günlərdən biridir. - Vətənə sədaqət andı içərək, ayıq-sayıq xidmət aparacağımıza, hərbi və dövlət sirrini qoruyacağımıza söz verdik. Bu and hər birimiz üçün pozulmaz qanundur. Söz veririk ki, hərbi xidmətdə məsuliyyətli, nizam-intizamlı olacaq, öyrədilən hərbi biliklərə dərindən yiyələnmək üçün var qüvvəmizlə çalışacağıq. Hər birimiz bacarıqlı əsgərlər kimi formalaşaraq torpaqlarımızın keşiyində inamla dayanacağıq. Üçrəngli bayrağımızı Şuşada, Laçında... dalğalandırmaq üçün Ali Baş Komandanımızın döyüş əmrinə hər an hazır olacağıq.



Daha sonra hərbi andı qəbul edən şəxsi heyəti Qarabağ müharibəsinin veteranı Azər Quliyev, Böyük Vətən müharibəsinin veteranı Əli Əliyev və digər qonaqlar da təbrik etdilər.

Tədbir başa çatdıqdan sonra hərbi andı qəbul etmiş övladına baxıb qürurlanan valideynlərlə həmsöhbət oldum. Əsgər Toğrul Hüseynovun atası Seyran kişi bu tədbirdə iştirak etmək üçün Zərdab rayonundan gəlib. "Böyük qürur və həyəcan hissi keçirdim. Bir ata üçün oğlunu əsgəri formada görməkdən qürurlu gün ola bilməz. Bir daha fəxr etdim ki, oğlum belə bir qüdrətli dövlətin əsgəridir. Onun timsalında bütün əsgər balalarımızı təbrik edir, xidmətlərində uğurlar arzulayıram".

Əzizə ana isə oğlu Ağarza Məmmədlinin görüşünə İmişli rayonundan gəlib. Sevincdən gözləri yaşaran ana duyğularını bölüşdü: "Əsgər anası olmaq böyük sevincdir. Bunu sözlərlə ifadə etmək olmur. Gənc əsgərlər hərbi and içərkən qürurdan ürəyim az qalırdı sinəmdən çıxsın. Hər bir ana yaxşı bilir ki, oğul düşmən çəpəridi. Qoynunda boya-başa çatdığı Vətəninə xidmət etmək onun şərəf borcudur. Bu günə kimi mən ona xidmət etmişəm, bu gündən sonra o, ana Vətənə layiqli xidmət etməlidir. Torpaqlarımızı göz bəbəyi kimi qorumalı, lazım gələrsə, Vətən uğrunda canını əsirgəməməlidir. Bu şərəfli xidmətdə hər bir əsgərə uğurlar arzulayıram".

**(Ardı 5-ci səhifədə)**

# Azərbaycan Ordusunda andiçmə mərasimi keçirildi

(Əvvəli 4-cü səhifədə)

"N" hərbi hissəsində keçirilən mərasimdə ölkəmizin müxtəlif bölgələrindən gəlmiş valideynlər, kütləvi informasiya vasitələrinin əməkdaşları və ictimaiyyət nümayəndələri iştirak edirdilər.

Tədbiri giriş sözü ilə açan polkovnik Qədir Nəsibov gənc əsgərləri və qonaqları salamladı. Valideynləri bu gündən etibarən əsgər valideyni olması münasibəti ilə təbrik etdi. Ordumuzun inkişafından söz açan zabit Qədir Nəsibov bildirdi ki, müasir ordu quruculuğu ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. "Artıq əminliklə deyə bilərik ki, əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan müasir Azərbaycan Ordusu hal-hazırda Ali Baş Komandanımız İlham Əliyev tərəfindən yüksək səviyyədə idarə olunur. Ordumuz günü-gündən daha da inkişaf edir və möhkəmlənir".

Azərbaycan Ordusunun 2016-cı ilin aprel döyüşlərindəki uğurlarından danışan polkovnik Qədir Nəsibov ordumuzun qarşıya qoyulan tapşırıqların öhdəsindən layiqincə gəlməsindən də bəhs etdi. "Aprel döyüşlərinin bir neçə gün davam etməsinə baxmayaraq, ordumuz işğal altında olan mühüm əhəmiyyətə malik məntəqələri azad etdi. Bu döyüşlərlə ordumuz gücünü, qüdrətini bir daha göstərdi.





Azərbaycan xalqı 2016-cı ilin aprel döyüşlərində çoxdan arzusunda olduğu Qələbə hissini yaşadı. Bu qələbənin qazanılmasında igid oğullarımızın əvəzsiz rolu oldu. Şəhid olan qardaşlarımızın ruhları qəlbimizdə yaşayır".

Əsgər anası Aytəkin Hüseynova oğlunun mötəbər gününündə iştirak etməsindən qürur duyduğunu bildirdi. "Bu gün biz valideynlər üçün olduqca şərəfli və duyğulu bir gündür. Çünki övladlarımız doğma yurdlarını qoruyacaqlarına və Vətənə sədaqətlə xidmət edəcəklərinə and içdilər. Əsgər anası olmaq bir ana üçün çox qürurvericidir. Arzu edirəm ki, övladlarımız Vətənimizin, xalqımızın, millətimizin layiqli müdafiəçiləri olsunlar".

Andiçmə mərasimi hərbi qulluqçuların təntənəli marşı ilə başa çatdı.

* * *

Polkovnik Saleh Kələntərov gənc əsgərləri və əsgər valideynlərini salamladıqdan sonra gənc hərbi qulluqçular təntənəli surətdə hərbi andı qəbul etdilər. Zabit Saleh Kələntərov tədbirdə çıxış etdi: "Bu gün ümummilli liderimiz Heydər Əlirza oğlu Əliyevin doğum günündə ordu həyatına ilkin qədəmlərini qoyan gənc əsgərlərimiz millətinə, xalqına sədaqətlə xidmət edəcəklərinə, Vətəninin bütövlüyü uğrunda döyüşlərə hazır olacaqlarına and içdilər. Biz inanırıq ki, hər biriniz hərbi anda sadiq qalaraq qürurlu xidmətinizlə xalqımıza başucalığı gətirəcəksiniz. Andiçmə mərasimi hər bir gənc hərbi qulluqçu üçün unudulmaz və şərəfli bir gündür. Bu gündən etibarən siz Azərbaycan Ordusunun əsgərlərisiniz. Əsası Ulu Öndər tərəfindən qoyulan və Ali Baş Komandanımız İlham Əliyev tərəfindən yüksək səviyyədə inkişaf etdirilən ordumuz dünyanın aparıcı orduları sırasındadır. Hər bir gənc əsgəri təbrik edir və bu şərəfli xidmət yolunda uğurlar arzulayıram."

Gənc əsgərlər adından çıxış edən əsgər Cavid Hümbətov bildirdi ki, bu gün hər bir gənc əsgərin həyatında unudulmaz günlərdən biridir. "Hər birimiz ikiqat bayram əhval-ruhiyyəsindəyik. Andiçmə mərasiminin bu cür əlamətdar bir gündə - Azərbaycan Respublikasının dahi şəxsiyyəti Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü tarixində keçirilməsi gənc əsgərlər üçün əlavə stimuldur. Bizim hal-hazırda amalımız birdir - Vətənimizin keşiyində durub, torpaqlarımızın bütövlüyünü qoruyub saxlamaq. Bu andan etibarən hər birimiz fəxrlə "Azərbaycan Respublikasına xidmət edirik! - deyə bilərik".

Gənc əsgər atası Saleh Alışanov bu tədbirdə iştirak edənlər sırasında idi. Kürdəmir rayonundan oğlunun andiçmə mərasiminə gələn ata qürurlu görünürdü. "Oğlum əsgər olacağı günü səbirsizliklə gözləyirdi. Bu tarixdən etibarən o, tamhüquqlu Azərbaycan əsgəridir. Bir valideyn kimi ona və onunla bu şərəfli yolda addımlayan hər bir əsgər balamıza mübariz, mərd, cəsur olmağı arzulayıram. Bu gün bizim övladlarımız müasir ordunun əsgərləridirlər. Bir valideyn olaraq, gənc əsgərlərimizə döyüşçü peşəsinin sirlərini dərindən mənimsəməyi, düşmənə qarşı savaşa hər an hazır olmağı tövsiyə edirəm".

Tədbir hərbi qulluqçuların təntənəli marşından sonra bağlı elan edildi.

* * *

Ordu sıralarına qədəm qoyan hər bir insanın həyatındakı ən önəmli və unudulmaz anlardan biri hərbi andiçmə mərasimidir. Məhz bu gün "Mən Azərbaycan Respublikasının vətəndaşı, Azərbaycan Silahlı Qüvvələri sıralarına daxil olarkən, Vətənim Azərbaycana və onun xalqına sadiq olacağıma and içirəm, təntənəli surətdə and içirəm" deyərək ordu sıralarına rəsmən daxil olursan. "N" hərbi hissəsində ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə və hərbi andiçmə gününə həsr olunmuş təntənəli mərasim keçirildi.

Tədbiri giriş sözü ilə açan polkovnik Əbil Əmirov gənc əsgərləri və valideynlərini əlamətdar gün münasibəti ilə təbrik etdi. Valideynlərə Vətənə sədaqətli oğul böyütdükləri və tərbiyə etdikləri üçün öz minnətdarlığını bildirdi. Onlara söz verdi ki, övladlarının doğma Azərbaycanımız üçün layiqli bir vətəndaş kimi yetişməsi üçün əllərindən gələni edəcəklər. Həmçinin Ə.Əmirov bu günün əlamətdarlığını vurğulayaraq qeyd etdi ki, ümummilli lider Heydər Əliyevin doğum günüdür.

- Müasir Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin yaradıcısı, əbədiyaşar komandan Heydər Əliyevin apardığı uğurlu ordu quruculuğu siyasəti nəticəsində Azərbaycan Ordusu yenidən elmi əsaslarla quruldu, orduda vahid komandanlıq prinsipi təmin edildi. Bu gün Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin diqqət və qayğısı ilə əhatə olunmuş Azərbaycan Ordusu döyüş və mənəvi-psixoloji hazırlıqda yeni-yeni nailiyyətlər qazanır.

Çıxışının davamında aprel zəfərindən danışan zabit and içən əsgərlərlə birgə Ali Baş Komandanın əmri ilə torpaqlarımızın azadlığı uğrunda döyüşməyi arzu etdi, gənc əsgərlərə çətin və şərəfli xidmətlərində uğurlar arzuladı.

Gənc əsgərlər adından əsgər Rüfət Bədəlov təbriklərə qoşuldu. Bu şərəfli gün münasibəti ilə həm silahdaşlarını, həm də tədbir iştirakçılarını təbrik etdi: "Bu gün bizlər həyatımızın yeni mərhələsinə qədəm qoyuruq. Valideynlərimiz və komandirlərimiz qarşısında hərbi andı qəbul etdik. And içdik ki, Vətənimiz Azərbaycanı göz bəbəyi kimi qoruyacaq, Vətənə sədaqətlə xidmət edəcəyik. Hər bir Azərbaycan vətəndaşı üçün bundan şərəfli, müqəddəs və məsuliyyətli vəzifə ola bilməz. Ali Baş Komandanın əmrinə hər zaman müntəzir olacaq, torpaqlarımızın azadlığı uğrunda son damla qanımızadək döyüşəcəyik".

Əsgər Loğman Babaşovun babası Gülbaba Bayramov da sevincini tədbir iştirakçıları ilə bölüşdü. Bildirdi ki, Vətənə, xalqa məhəbbət və sədaqət hər bir azərbaycanlının mənəvi dünyasına xas olan ən böyük xüsusiyyət və ən güclü hissdir. "Nəvəmin əsgər olmasından iftixar hissi duyuram. Bir baba kimi övladıma və onun timsalında hər bir əsgərə deyirəm ki, Vətən, torpaq yolunda canınızı və qanınızı əsirgəsəniz, bu torpağın bizlərə verdiyi çörək haram olar. Sizdən tək bir istəyim var: erməniləri torpaqlarımızdan çıxarıb bütöv Azərbaycanda bayrağımızı dalğalandırın".

Tədbirin rəsmi hissəsi başa çatdıqdan sonra əsgərlərə valideynləri ilə görüşmələri, valideynlərə isə hərbi hissədə yaradılmış şəraitlə tanış olmaları və konsert proqramını izləmələri üçün şərait yaradıldı. Əsgərlərin valideynləri ilə sevgi dolu görüşü hər zaman olduğu kimi, bu dəfə də diqqətimi cəlb etdi. Ata, ana, əsgər oğul - bu görüntü diqqətimi çəkdi. Tanış olduq. Tahir Əhmədov Bakı şəhərindəndir. Oğlu Elnurun andiçmə mərasiminə həyat yoldaşı və bacısıyla gəlib. Bu da əsgərə sevgidi, güvəncdi. Tədbirin təntənəsi atanı az da olsa həyəcanlandırıb:

- Ata-ana xeyir-duasıyla hərbi xidmətə yola saldığımız oğlumuzun hərbi andiçmə günü bizə könül xoşluğu verdi. Qürurlandıq ki, Elnur da Vətənin keşiyində dayananların sırasındadı. Bu duyğuları yaşamaq xoşbəxtlikdi. Oğlum 2016-cı ilin aprel döyüşlərində tələbəydi. O qələbənin sevinci hamı kimi bizim də ürəyimizi dağa döndərdi. Onda Elnurun dediyi kəlmələr mənim ata qürurumu kükrətdi: biz əsgər olana kimi torpaqlarımız işğaldan azad ediləcək. Ali Baş Komandanımızın əmri ilə torpaqlarımızı işğaldan azad edənlərin sırasında oğlumu da görmək istəyirəm. Ali Baş Komandanın, Müdafiə nazirinin orduya diqqət və qayğısını əsgər valideynləri olduqca yüksək minnətdarlıqla qarşılayır. Belə gözəl şərait, təbii ki, bizə xoş ovqat, inam, güvənc verir. Mən fəxr edirəm ki, oğlum Cənubi Qafqazda ən güclü ordunun əsgəridir."



**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Mövzu:** 1918-1920-ci illərdə Azərbaycanda baş verən ictimai-siyasi hadisələr. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması, fəaliyyəti və süqutu.

**Suallar:**

**1. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ərəfəsində Azərbaycanda ictimai-siyasi vəziyyət.**

**2. Azərbaycanın müstəqilliyini elan etməsi. Azərbaycan Xalq Cümhuriyyəti dövründə dövlət quruculuğu.**

**3. Azərbaycan Xalq Cümhuriyyətinin süqutunun əsas səbəbləri.**

*Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ərəfəsində Azərbaycanda ictimai-siyasi vəziyyət*

Azərbaycan öz müstəqilliyini elan etmə ərəfəsində Rusiya imperiyasının tərkibində idi. Rusiyanın 1914-cü ildə I Dünya müharibəsinə qoşulması nəticəsində ölkədə yaranan ağır iqtisadi vəziyyətdən, cəbhədəki uğursuzluqlardan məharətlə istifadə edən bolşeviklər xalq kütlələrini çar hakimiyyəti əleyhinə qaldırmağa müvəffəq oldular. 1917-ci il fevralın 27-də Rusiyada baş verən çevriliş nəticəsində çar II Nikolay taxt-tacdan əl çəkməyə məcbur oldu. Rusiyada hakimiyyət müvəqqəti hökumətin əlinə keçdi.

1917-ci il martın 9-da Müvəqqəti Hökumət tərəfindən Zaqafqaziyanın idarə edilməsi üçün Xüsusi İdarə Komitəsi yaradıldı. Komitəyə Dövlət Dumasının yerli üzvləri daxil edilmişdi.

Fevral inqilabının siyasi həyata gətirdiyi canlanma nəticəsində Azərbaycanın müxtəlif sahələrində müsəlman milli şuraları yaradıldı. Bu şuralar öz fəaliyyətlərini milli məqsədlər istiqamətində qurmağa çalışırdılar. Onların arasında ən güclüsü və nüfuzlusu Bakı Müsəlman İctimai Təşkilatları Şurası idi. Bu şuranın tərkibinə milli-azadlıq hərəkatının liderləri olan Məmməd Əmin Rəsulzadə, Fətəli Xan Xoyski, Əlimərdan bəy Topçubaşov, Mehdi bəy Hacınski kimi ziyalılar daxil idilər. Özünün ümummilli xətti ilə kütləviliyini artıran şura Bakıda siyasi üstünlüyə malik idi.

Milli hərəkatın fəallarının xalqın hüquqlarının təmin edilməsi yolunda irəli sürdükləri tələblər milli-siyasi ideyaların təcəssümü kimi cəmiyyətdə əməli surətdə müdafiə olunurdu. Bu tələblər yalnız xalqın ağır yaşayışından doğan cari problemlərin həllinə deyil, eyni zamanda ümummilli mənafeləri əks etdirən mühüm vəzifələrin həllinə doğru istiqamətləndirilmişdi.

1917-ci il oktyabr inqilabından sonra Zaqafqaziya Xüsusi Komitəsi öz fəaliyyətini dayandırdı və noyabrın 11-də hakimiyyəti öz üzərinə götürəcək müvəqqəti orqan kimi Zaqafqaziya Komissarlığı yaradıldı. Komissarlığın tərkibinə Azərbaycandan Məhəmməd Yusif Cəfərov, Xudadat bəy Məlikaslanov və Xəlil bəy Xasməmmədov təyin edilmişdi.

1918-ci il fevralın 23-də Tiflisdə Zaqafqaziya Seymi yaradıldı. Seymdə Azərbaycanı 44 nümayəndə təmsil edirdi. Yaranan ilk gündən azərbaycanlı, gürcü və erməni fraksiyaları arasında fikir ixtilafları mövcud idi. 1918-ci il aprelin 22-də Zaqafqaziya Federativ Respublikası elan edilsə də, ziddiyyətlər qalırdı.

*Azərbaycanın müstəqilliyini elan etməsi. Azərbaycan Xalq Cümhuriyyəti dövründə dövlət quruculuğu*

1918-ci il mayın 26-da Zaqafqaziya Seymi buraxıldı və həmin gün Gürcüstan öz müstəqilliyini elan etdi. Mayın 27-də Tiflisdə canişin sarayında Həsən Bəy Ağayevin sədrliyi ilə keçirilən və keçmiş seymin Azərbaycan fraksiyasının 44 nümayəndəsindən 26 nəfərinin iştirak etdiyi iclasda Azərbaycan Milli Şurası yaradıldı və şura Azərbaycanın idarə olmasını öz üzərinə götürdü. Mayın 28-də M.Ə.Rəsulzadənin sədrliyi ilə Milli Şuranın ilk iclası oldu. İclasda Azərbaycanın dövlət müstəqilliyinin elan edilməsi haqqında qərar qəbul edildi.

Milli şuranın 28 may tarixli iclasında Azərbaycan Xalq Cümhuriyyətinin ilk hökumətinin təşkil edilməsi Fətəli Xan Xoyskiyə tapşırıldı. Həmin gün Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin tərkibi müəyyənləşdirildi.

İyunun 4-də Azərbaycanın nümayəndə heyəti Batumidə Osmanlı dövləti ilə daimi sülh və dostluq münasibətləri haqqında müqavilə imzaladı. Azərbaycan hökumətinin xahişinə cavab olaraq Türkiyə hökuməti Azərbaycana 2 milyon türk lirəsi ayırdı.

1918-ci il iyunun 16-da Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Tiflisdən Gəncəyə köçdü.

İyunun 17-də Gəncədə F.Xoyskinin rəhbərliyi ilə ikinci hökumət təşkil edildi. İyunun 23-də Azərbaycanda yaranmış gərgin vəziyyəti nəzərə alaraq hökumət bütün Azərbaycan ərazisində hərbi vəziyyət elan etdi.

Qatı millətçi Stepan Şaumyanın rəhbərlik etdiyi Bakı Sovetinin ixtiyarında olan əsasən, erməni və ruslardan təşkil olunan 18 minlik hərbi qüvvə iyunun 10-da Gəncə istiqamətində yürüşə başladı. İyunun 12-də Kürdəmiri işğal edən qoşunlar iyunun 27-də Göyçaya yaxınlaşdılar. Qafqaz İslam Ordusu və Azərbaycan Ordusunun hissələri Göyçay ətrafında bolşevik-daşnak qüvvələrini darmadağın edərək, Bakı istiqamətində azadlıq yürüşünə başladılar. İyunun 20-də mühüm strateji məntəqə olan Şamaxı azad edildi. Sentyabrın 15-də Azərbaycan hərbi hissələri və türk qoşunları Bakı şəhərini azad etdilər. Azərbaycan hökuməti sentyabrın 17-də Bakı şəhərinə köçdü.

Azərbaycanda siyasi hadisələrin inkişafı daxili proseslərdən daha çox I Dünya müharibəsinin gedişindən və nəticələrindən asılı idi. Azərbaycan öz mənafeyi naminə Osmanlı qüvvələrinin qalib gəlməsini arzulayırdı. Lakin Türkiyə ilə Antanta dövlətləri (Fransa, İngiltərə və ABŞ) arasında bağlanan 1918-ci il 30 oktyabr Mudros müqaviləsinə görə məğlub sayılan Türkiyə, qoşunlarını Azərbaycandan çıxarmalı, Antanta qüvvələrinin Bakıya girməsinə mane olmamalı, Zaqafqaziya dəmir yolu üzərindəki nəzarət hüququnu Antantaya güzəştə getməli idi. Noyabrın 17-də ingilis qoşunları Bakıya daxil oldular. Bakıda ingilis general-qubernatorluğu yaradıldı. İngilis qoşunlarının komandanı general U.Tomson Azərbaycanın müstəqilliyini tanımaq haqqında bəyanat verməkdən imtina etsə də, Azərbaycanın Paris Sülh Konfransında iştirak edəcəyi, Bakıya erməni hissələrinin daxil olmayacağı barədə üzərinə öhdəliklər götürdü. Dekabrın 7-də Azərbaycan Parlamentinin ilk iclası oldu. Parlamentin tərkibi 120 deputatdan ibarət idi. Parlamentdə azərbaycanlılara 80, ermənilərə 21, ruslara 10, yəhudi, alman, gürcü və polyak icmalarının hərəsinə 1, həmkarlar İttifaqı Şurası və Neft sənayeçiləri İttifaqı üçün 3 yer ayrılmışdı. Parlamentin ilk iclasında F.Xoyski hakimiyyəti parlamentə təhvil verdi. Əlimərdan bəy Topçubaşov parlamentin sədri, Həsən bəy Ağayev isə onun müavini seçildi. Hökumətin təşkili F.Xoyskiyə tapşırıldı. Dekabrın 26-da hökumətin tərkibi elan edildi.

1919-cu ilin aprelində Bakıda ingilis general-qubernatorluğu ləğv edildi, ingilislər Paris Sülh Konfransının şərtlərinə uyğun olaraq Qafqazı tərk etməyə başladılar. Azərbaycan Xalq Cümhuriyyəti qısa bir müddətdə normal fəaliyyət göstərən dövlət aparatı yaratmağa, 20-dən çox dövlətlə diplomatik əlaqələr qurmağa nail oldu.

Hökumətin Gəncədə fəaliyyəti dövründə 1918-ci il iyun ayının 27-də Azərbaycan dilinin dövlət dili elan olunması haqqında fərman imzalandı. İyunun 27-də üzərində ağ rəngli aypara və səkkiz guşəli ulduz təsviri olan qırmızı rəngli bayraq Dövlət Bayrağı kimi qəbul edildi, noyabrın 9-da isə həmin bayraq üçrəngli - mavi, qırmızı və yaşıl zolaqlardan ibarət olan bayraqla əvəz olundu.

1918-ci ilin avqustun 11-də ümumi hərbi səfərbərlik elan olundu 1894-1899-cu il təvəllüdlü bütün Azərbaycan vətəndaşları hərbi xidmətə çağırıldılar. Sentyabrın 1-də hərbi nazirliyin yaradılması haqqında qərar qəbul edildi. 1920-ci ilin yanvarında artıq 30 min nəfər piyada 10 min nəfər süvaridən ibarət ordu yaradılmışdı.

Təhsil sahəsində də mühüm nailiyyətlər qazanılaraq orta məktəblərin milliləşdirilməsi işinə başlandı və 1919-cu il sentyabrın 1-də indiki Bakı Dövlət Universitetinin əsası qoyuldu.

*Azərbaycan Xalq Cümhuriyyətinin süqutunun əsas səbəbləri*

Azərbaycan beynəlxalq aləmdə tanınmasına baxmayaraq ölkənin şimal sərhədlərindəki vəziyyət gərgin olaraq qalırdı. Rusiyanın cənubunda Denikinin qoşunlarına qalib gələn bolşeviklər Bakı neftinə sahib olmaq üçün öz qüvvələrini Azərbaycan sərhəddinə cəmləşdirərək işğala hazırlaşırdılar.

Bolşeviklər Azərbaycanın daxilində də təxribatçılıq fəaliyyətini gücləndirirdilər. 1920-ci ildə A.Mikoyanın rəhbərliyi ilə yaranmış Azərbaycan kommunist (bolşevik) partiyasının əsas məqsədi ölkədaxili vəziyyəti gərginləşdirmək, təxribat yolu ilə bolşeviklərin hakimiyyətə gəlməsinə şərait yaratmaq idi.

Sovet Rusiyası Ermənistanın Azərbaycana qarşı düşmənçiliyindən məharətlə istifadə edirdi. 1920-ci ilin əvvəllərində erməni nümayəndələri Moskvada ərazi güzəştləri müqabilində Azərbaycanın hökumətini devirmək üçün Qarabağ və Gəncəbasarda məskunlaşan erməni əhalisinin qiyamını təşkil etmək təklifini verdilər.

1920-ci ilin mart ayında Qarabağda kütləvi erməni hücumlarının başlanması ilə əlaqədar Azərbaycan Ordusunun əsas qüvvələri bu bölgədə yerləşdirilmişdi. Şimal sərhədlərini qoruyan qüvvələrin böyük bir hissəsi də Qarabağa göndərilmişdi. Erməni silahlı birləşmələri ilə döyüşlərdə Azərbaycan Ordusunun hissələri canlı qüvvə, silah-sursat və əmlak itkilərinə məruz qalmışdılar. Aprelin 27-də parlamentin iclasında Hərbi nazir Səməd bəy Mehmandarov ölkəni müdafiə barədə sorğuya cavab olaraq bildirdi ki, Azərbaycan Ordusu Ermənistan silahlı qüvvələrinə müqavimət göstərməyə qadir olsa da, bolşeviklərin hücumunun qarşısını almaq üçün kifayət qədər qüvvəyə malik deyildir.

1920-ci ilin aprelində Denikinin qoşunlarını məğlub edən XI Qırmızı Ordu Azərbaycanın sərhədlərinə yaxınlaşdı. Həmin günlərdə A.Mikoyan başda olmaqla Bakı bolşevikləri Azərbaycan xalqı adından XI rus ordusunu Azərbaycana dəvət etdilər. Aprelin 26-dan 27-nə keçən gecə XI Qırmızı Ordunun hissələri Azərbaycan ərazisinə daxil olub Bakıya doğru irəliləməyə başladılar.

Aprelin 27-də saat 12:00 -da Azərbaycan parlamentinə hakimiyyəti təhvil vermək haqqında ultimatum verildi.

Beləliklə, Azərbaycan Xalq Cümhuriyyəti 23 aylıq fəaliyyətdən sonra süqut etdi. Aprelin 28-də Azərbaycan Xalq Komissarları Soveti yarandı.

Aprel işğalı nəticəsində Azərbaycanda formalaşan bolşevik rejiminin ömrü 70 il çəkdi. Lakin bu illərdə xalq özünün istiqlal arzularını unutmadı, nəsildən-nəsilə ötürdü.

Nəhayət, 1991-ci ildə Azərbaycan yenidən öz müstəqilliyini bərpa etdi. Müstəqilliyini bərpa edən Azərbaycan Respublikasının dövlət quruculuğunda Azərbaycan Xalq Cümhuriyyətinin təcrübəsindən istifadə xətti götürüldü. Həmin dövrün dövlət rəmzləri yenidən qəbul edildi. Lakin Azərbaycan Respublikasının yarandığı ilk günlərdən Ermənistan tərəfinin ərazi iddiaları, hakimiyyət uğrunda ölkədaxili çəkişmələr dövlət quruculuğunu ləngidir, müstəqilliyimizə təhlükə yaradırdı. 1991-1993-cü illərdə Azərbaycanda yaranmış ictimai-siyasi vəziyyətin dövlətçiliyimizi təhlükə altına qoyduğunu dərk edən hakimiyyət xalqın təkidi ilə görkəmli dövlət xadimi, böyük idarəetmə təcrübəsinə malik olan Heydər Əliyevi ölkə rəhbərliyinə dəvət etdi. Məhz Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra onun apardığı müdrik və uzaqgörən daxili və xarici siyasət nəticəsində Azərbaycan Respublikasının dövlət quruculuğunda və bu quruculuğun vacib sahələrindən biri olan ordu quruculuğunda əsaslı dönüş yarandı. Bu gün Azərbaycan nəinki öz müstəqilliyini qoruyub saxlaya bilmiş, hətta dünya dövlətləri arasında böyük nüfuza malik olan bir dövlət kimi öz layiqli yerini tutmuşdur.

**Müdafiə Nazirliyi**
**Mənəvi-Psixoloji**
**Hazırlıq və İctimaiyyətlə**
**Əlaqələr İdarəsi**

# Veteranların sağlamlığı daim diqqət mərkəzindədir





Silahlı Qüvvələrin Baş Klinik Hospitalında Azərbaycan Respublikası Veteranlar Təşkilatı veteranlara göstərdikləri nümunəvi tibbi xidmətə görə bir qrup tibb işçisini mükafatlandırmışdır.

Mərasim ümummilli lider Heydər Əliyevin, Vətənimizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlandı. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Hospitalın rəis müavini, tibb xidməti polkovniki Vüqar Mürsəlov tədbiri açıq elan edərək bildirdi ki, son illərdə Azərbaycanda bütün sahələrdə olduğu kimi, hərbi səhiyyə sahəsi də durmadan inkişaf edir. "Silahlı Qüvvələrin Baş Klinik Hospitalının ən son elmi-texniki nailiyyətlərə əsaslanan tibbi avadanlıq və cihazlarla təchiz edilməsi bu sahəyə göstərilən dövlət qayğısının təzahürüdür. Bu gün şöbələrdə yaradılan şərait xəstələrə ən yüksək səviyyədə, həmçinin qısa vaxtda keyfiyyətli tibbi xidmət göstərməyə imkan verir. Hospitalımızda mövcud olan müasir tibbi avadanlıqla təchiz edilmiş mobil səhra hospitalı da fəal döyüş əməliyyatları zamanı yaralılara və xəstələrə ixtisaslı tibbi yardımın göstərilməsini təmin edir. Bütün bu sadalananlar dövlət başçısının hərbçilərin sağlamlığına və onların sosial məsələlərinin həllinə həssaslıqla yanaşdığını nümayiş etdirir. Uğurlu aprel döyüşləri də təsdiq etdi ki, Azərbaycan Ordusunun tibbi təminatı və hərbi-həkim heyətinin peşəkarlığı yüksək səviyyədədir."

Veteranlara göstərilən tibbi qayğıya toxunan natiq vurğuladı ki, bu hərbi səhiyyə müəssisəsi yarandığı gündən zabit və əsgər heyətinə, həmçinin veteranlara da daim yüksək səviyyədə tibbi xidmət göstərir. "Arzu edirəm ki, veteranlar xəstələnməsinlər. Bu gün veteranlarımıza "sağ olun" deyirik. Biz təkcə sözdə deyil, həm də əməldə qəhrəmanlarımıza diqqət göstərməyə çalışırıq. Hospitalın rəhbərliyi heç zaman müharibə veteranlarını unutmur və əlindən gələni edir ki, onlar burada özlərini rahat hiss edib, sağlam həyata qovuşsunlar. Onlar Böyük Qələbənin əldə edilməsində rəşadət və fədakarlıq göstərmişlər. Bu nümunələr heç vaxt tarixdən silinməyəcək. Veteranlar həyat və fəaliyyətləri nəsillər üçün örnək, özləri isə bizlər üçün canlı əfsanə simvoludurlar."

Azərbaycan Respublikası Veteranlar Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov hospitalla olan sıx əməkdaşlıqdan söhbət açdı. "Millət, dövlət güclüdür ki, hörmətlə yad edilməli qəhrəmanları var. Bizim vəzifəmiz müharibə veteranlarının qəhrəmanlığını, cəsarətini və sonsuz Vətən sevgisini onların öz dilindən nəsillərin diqqətinə çatdırmaqdır. Lakin zaman-zaman veteranlar yaşlandıqca xəstəliklər onları üstələyir. Bu səbəbdən də onlar üçün tibbi təminat məsələləri vacibdir. Hospitalda veteranlar maksimum diqqət və qayğı ilə əhatə olunublar, onların sağlamlıqlarının möhkəmləndirilməsi istiqamətində mühüm işlər həyata keçirilir. Bu sahədə görülən işlər yüksək qiymətə layiqdir. Böyük Vətən müharibəsi veteranlarına xüsusi münasibət cəmiyyət tərəfindən də təqdir olunur".

Sədr müavini hospitalda müharibə veteranlarını ziyarət etdiyi zaman yaranan təəssüratlarını da tədbir iştirakçıları ilə bölüşdü: "Palatalarda olan unikal tibbi avadanlıq və cihazlar xəstələrə yüksək səviyyədə tibbi xidmət göstərməyə şərait yaradır. Xəstələrin müalicəsinə olduqca həssas və diqqətli yanaşan həkimlər və tibb bacıları daim öz yüksək peşəkarlıqlarını təsdiqləyirlər. Veteranlar bu tibb ocağında nəinki sağalır, ən sağlam həyatı yaşayırlar. Veteranlara göstərdiyiniz bu cür dəstəyə görə sizə öz minnətdarlığımı bildirirəm."

Sonda Azərbaycan Respublikası Veteranlar Təşkilatı adından veteranlara göstərdikləri nümunəvi tibbi xidmətə görə bir qrup həkim və tibb bacısına yubiley medalları və fəxri fərmanlar təqdim olundu, xatirə şəkilləri çəkildi.

**Leytenant**
**Samir HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

*Vətənpərvərlik*

# Bayrağa sədaqət andı

*"İnnovativ Təşəbbüslər" İctimai Birliyinin təşəbbüsü, Müdafiə və Təhsil nazirliklərinin dəstəyi ilə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş silsilə tədbirlər çərçivəsində "Bayrağa sədaqət andı"nın təbliği məqsədilə Quba rayonunda keçirilən tədbirdə Müdafiə və Təhsil nazirliklərinin, Quba rayon İcra Hakimiyyətinin nümayəndələri, Bakı şəhərinin 7, 18, 26 və 60 nömrəli məktəblərinin şəhid övladları, aztəminatlı və istedadlı şagirdləri və müəllimləri iştirak etdilər.*



Tədbiri Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin dövlət qulluqçusu Zümrüd Səmədova türk şairi Midhat Cemal Kuntayın "Bayraqları bayraq edən üstündəki qandır, Torpaq, uğrunda ölən varsa, Vətəndir" misraları ilə açaraq bildirdi ki, bayraq milli ləyaqət, heysiyyət, dövlətə sədaqət simvoludur. "Bayraq tarixən hər bir xalq üçün müqəddəs olub. Gənclərimiz dövlət bayrağına yüksək ehtiram bəsləyirlər. Bu da vətənpərvərliyin bariz nümunəsidir. Dünya dövlətləri arasında ancaq bizdə bayrağa sədaqət andı içilir. Bu and Hərbi andla birləşərək gənclərimizin daxilindəki müqəddəs hissləri daha da gücləndirir. Üçrəngli bayrağımız milli birliyimizin təcəssümü, şəhid ruhlarının daşıyıcısıdır. Onu daim yüksəklərdə dalğalandırmaq hər birimizin müqəddəs borcudur".

Zümrüd Səmədova dünyanın inkişaf etmiş orduları ilə eyni sırada yer alan ordumuzun gücündən, qüvvətindən də söz açdı. "Aprel döyüşlərində Lələtəpəyə, Bayraqtəpəyə sancılan üçrəngli bayrağımızı igid, mərd oğullarımız Ali Baş Komandan İlham Əliyevin əmri ilə tezliklə işğaldan azad edəcəyimiz torpaqlarımızda dalğalandıracaqlar", - dedi: "O gün uzaqda deyil".

"İnnovativ Təşəbbüslər" İctimai Birliyinin sədri Əşrəf Əhmədov layihə haqqında geniş məlumat verərək bayrağın insanın, xalqın və millətin həyatında önəmindən, gənc nəslə daim təbliğ olunmasının vacibliyindən danışaraq qeyd etdi ki, "Bayrağa sədaqət andı" layihəsi yenіyetmə və gənclərdə bayrağımıza hörmət və məhəbbət hissi formalaşdırır, vətəndaşlıq duyğusunu, milli qürur hissini gücləndirir. "Gələcəyimiz olan bu günün gəncləri bayrağımızı daim uca tutacaqlar".

Quba rayon İcra Hakimiyyəti başçısının birinci müavini Aydəmir Manafov belə vətənpərvərlik layihələrini təqdirəlayiq hal kimi qiymətləndirərək şagirdlərin "Bayrağa sədaqət andı"nı milli ruhun yaşarılığı kimi qiymətləndirdi, onun keçdiyi keşməkeşli yollardan danışaraq bildirdi ki, üçrəngli bayrağımız Azərbaycanımızın müstəqilliyinin, xalqımızın milli mənsubiyyətinin, tarixinin, mənəvi dünyasının rəmzidir. "70 ildən sonra ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə üçrəngli bayrağımızın dövlət bayrağı olması barədə qərar qəbul edilməsi mühüm tarixi hadisə olmaqla yanaşı, həm də xalqımızın öz keçmişinə, milli-mənəvi dəyərlərinə olan dərin ehtiramının təzahürüdü. Bu gün Ümummilli Liderin milli mənafelərə əsaslanan siyasətini bütün sahələrdə uğurla davam etdirən Prezident İlham Əliyev də daxilindən gələn yüksək vətənpərvərliklə Azərbaycanın milli dövlət atributlarını uca tutur".

Aydəmir Manafov hər bir Azərbaycan vətəndaşının bayrağa ehtiramını müqəddəs borc adlandırdı. İki oğlunun da aprel döyüşlərinin iştirakçısı olmasıyla qürurlandı. O günlərdə dövlət başçısına rəsmi ərizəylə müraciət edərək oğlanları ilə bir sırada torpaqlarımızın işğaldan azad edilməsində iştirak etmək istəyində olduğunu bildirən Aydəmir Manafov Vətən sevgisinin dünyada heç bir hisslə müqayisə belə olunmayacağını vurğuladı.

Şagirdlər "Bayrağa sədaqət andı" içərək Azərbaycan Respublikasının bayrağını hər zaman uca tutacaqlarına, yüksəklərdə dalğalanması üçün mübarizə aparacaqlarına söz verdilər.

Mərasimdə Azərbaycan Respublikasının Dövlət bayrağını Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin dövlət qulluqçusu Zümrüd Səmədova Quba rayon İcra Hakimiyyəti başçısının birinci müavini Aydəmir Manafova təqdim etdi.

VI sinif şagirdlərindən Leyla Hacıyeva, Fatimə Səfərəliyeva, Emin Babayev bayraq haqqında fikirlərini bölüşdü, şeirlər dedilər. Şagirdlər bayrağın keşiyində dayanmağı hər bir vətəndaşın müqəddəs borcu olduğunu deyərkən, sinif yoldaşları Oruc Qasımlı Vətən sevgisini sazla ifadə etdi.

X sinif şagirdi Anar Əliyev dayısı aprel şəhidi Urfan Vəlizadənin qəhrəmanlığını özünə nümunə bildiyini, Vətəni onun kimi sevəcəyinə söz verdiyini dedi.

Xalqımızın tarixi haqqında ətraflı məlumat verən Nihat Rüstəmov rəqs ilə, Əli Rüstəmzadə musiqi ilə məşğul olur. Hər ikisi də gələcəkdə bayrağımızı yüksəklərə qaldırmaq üçün səy göstərəcəklərini bildirdilər.

III sinif şagirdi Uğur Məmmədli "Testene art II Baku" Beynəlxalq İncəsənət müsabiqəsi festivalında rəqs üzrə I yerə layiq görülüb. Uğurun ən böyük arzusu iyunda İtaliyanın Riminist şəhərində keçiriləcək müsabiqədə də yer tutmaq, bayrağımızı qaldırmaqdır.

Təkrarsız səsə malik Müslüm Maqomayevin "Azərbaycan" mahnısını ifa edən VIII sinif şagirdi Aslan Əliyev tədbir iştirakçılarına ruh yüksəkliyi yaşatdı. XI sinif şagirdi Mədinə Hüseynzadənin çəkdiyi bayraq rəsmləri hər kəsin düşüncəsinə Ulu Öndərin "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" kəlamının işığını yansıtdı.

IX sinif şagirdi Gülnar Qurbanlı dövlətimizin, xalqımızın şəhidlərə verdiyi dəyərdən söz açdı. Dayısı Etibar Əliyevin ərazi bütövlüyümüz uğrunda şəhid olmasıyla fəxr etdiyini bildirdi. 162 nömrəli məktəbin şəhid məzununun adını daşıdığını qeyd etdi.

VII sinif şagirdləri Sənubər Məmmədova və Rəşidə Abbasova Vətən sevgisini ümman, özlərini bu ümmanın daşıyıcıları adlandırdılar.

Sonda tədbir iştirakçıları Quba Soyqırımı Memorial Kompleksini ziyarət etdilər.

**Leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

# "Şahin" hərbi idman oyunlarının final mərhələsi keçirildi

*Mayın 10-da Cəmşid Naxçıvanski adına Hərbi Liseydə respublika məktəbliləri arasında "Şahin" hərbi idman oyunlarının final mərhələsi keçirildi.*





"Şahin" hərbi idman oyunlarının final mərhələsində iştirak edəcək komandalar sıra meydanında düzülmüşdülər. Komanda üzvləri üçrəngli bayrağımızı başları üzərində dalğalandırırdılar.

Komandalar sıra meydanında yerlərini tutduqdan sonra yarış başlandı.

İlk olaraq çıxış etmək üçün söz C.Naxçıvanski adına Hərbi Liseyin rəisi vəzifəsini icra edən polkovnik Qadir Vəlişova verildi:

- Bu gün hər birimiz üçün çox əlamətdar və şərəfli bir gündür. Hər il məktəbimizdə "Şahin" hərbi idman oyunlarının final mərhələsi keçirilir. Uzun illərdir Cəmşid Naxçıvanski adına Hərbi Lisey belə mötəbər yarışa ev sahibliyi edir. Biz bundan qürur duyuruq. Məktəblilərin "Şahin" hərbi idman oyunlarında böyük fəallıq göstərməyi bizi sevindirir. Çünki bu günün məktəbliləri sabahın əsgərləridirlər. İnanıram ki, həmişə olduğu kimi, bugünkü birincilik də gərgin mübarizə şəraitində keçəcək. Güclülər qalib gələcək.

Gənc nəslin vətənpərvər, xalqa və dövlətə sədaqət ruhunda tərbiyə olunmasında, gələcək hərbi xidmətə hazırlanmasında "Şahin" hərbi idman oyunlarının böyük tərbiyəvi əhəmiyyəti var. Ona görə də həm Müdafiə, həm Təhsil, həm Gənclər və İdman nazirliklərinin, həm də Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəhbərliyi bu sahəyə böyük diqqət ayırırlar. Siz məktəblilər isə bu yarışlarda hazırlığınızı nümayiş etdirirsiniz.

Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş Azərbaycan Ordusu, onun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində gündən-günə möhkəmlənərək yeni inkişaf mərhələsinə qədəm qoyub. Ali Baş Komandanın gənclərə diqqət və qayğısı bütün sahələrdə daim hiss olunur. İnanıram ki, sizlər müntəzəm olaraq öz üzərinizdə çalışacaq, gələcəkdə Vətənimizə layiqli övlad olacaqsınız.

Hamınıza qələbə sevinci arzulayıram!

Gənclər və İdman nazirinin müavini İntiqam Babayev, Təhsil nazirinin müavini Firudin Qurbanov, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin şöbə rəisi polkovnik Rasim Şirinov, Respublika Veteranlar Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov və başqaları çıxış edərək "Şahin"lərə gərgin mübarizədə uğurlar dilədilər.

Çıxışlar başa çatandan sonra "Şahin" hərbi idman oyununun iştirakçıları həm təntənəli marşla, həm də mahnı ifa edərək tribunanın önündən keçdilər. Məktəblilər hərbi orkestrin ifa etdiyi hərbi marşların sədaları altında təntənə ilə tribunanın önündən keçərək bacarıqlarını nümayiş etdirdilər. Komandalara təyin olunmuş hakimlər isə onların hərəkətlərinə diqqət yetirir və müvafiq balla qiy-



mətləndirirdilər.

Mərasim iştirakçılarının böyük marağına səbəb olan keçid başa çatdıqdan sonra komanda üzvlərinin sıra hazırlığı yoxlanıldı. Kapitanlar komanda üzvlərinə müxtəlif əmrlər verdikcə məktəblilər tapşırığı yerinə yetirərək sırada cəld və çevik hərəkətlər edirdilər.

Sıra hazırlığı mərhələsi başa çatdıqdan sonra məktəblilər avtomatın sökülüb-yığılması, patron darağının doldurulub-boşaldılması və tüfəngdən hədəfə atəş açılması məntəqəsinə üz tutdular. Komanda üzvləri atış çalışmasını yerinə yetirdikdən sonra kəndir vasitəsilə təhlükəli zolağın dəf edilməsi, kəndirin köməkliyi ilə hündürlüyə dırmanma və enmə, tel əngəlinin dəf edilməsi, çadırın qurulması, minalanmış sahəyə qumbara atılması, mülki müdafiə və yaralının zəhərli zonadan çıxarılması və başqa mərhələləri dəf etməyə başladılar. Mərhələlərdən keçmək məktəblilərdə maraq oyadırdı. Hər kəs komandasının qalib olması üçün üzərinə düşən tapşırıqları peşəkarlıqla yerinə yetirməyə çalışırdı. Belə çalışqanlıq məktəblilərə uğurlar qazandırır.

Ağdam rayonunun komandasının nümayəndəsi Azər Ağayev dedi ki, şagirdlərimiz yarışa həvəslə gəliblər. Zona birinciliyində yaxşı nəticə göstərdiyimizə görə "Şahin" hərbi idman oyunlarının final mərhələsinə qatılmışıq. Məktəblilərimiz bu mərhələdə də fəal iştirak edərək yüksək yer tutmağa çalışırlar.

Yarışda iştirak edən məktəblilərdən Məhəmmədəli Əsədov, Ziyad Ağazadə, Elmin Mirzəyev, Məhəmməd Yusifov, Fəqan Əliyev, Ömər Rəhimli və başqaları ilə görüşüb söhbət etdim. Onlar belə bir mötəbər yarışda iştirak etməkdən qürur duyduqlarını dedilər.

Qaliblər elan olundu. Məlum olur ki, "Şahin" hərbi idman oyunlarının final mərhələsinin qalibi adını Sumqayıt şəhərinin komandası qazanıb. İkinci yerə Yasamal, üçüncü yerə Quba rayonunun komandaları yüksəldilər.

"Şahin" hərbi idman oyunlarının finalında qalib gələn komandaların mükafatlandırılması üçün təntənəli mərasim keçirildi. Əvvəlcə mərhələlərdə fərqləndiyinə görə komandaların kapitanlarına fəxri fərmanlar verildi. Yarışın kubokunu Sumqayıt şəhərinin komandasına C.Naxçıvanski adına Hərbi Liseyin rəisi vəzifəsini icra edən polkovnik Qadir Vəlişov təqdim etdi. İkinci və üçüncü yerə çıxmış komandaların üzvlərinə fəxri fərmanları və qiymətli hədiyyələri vermək Gənclər və İdman Nazirliyinin sektor müdiri Əli Məmmədova həvalə edildi.

**Vahid MƏHƏRRƏMOV,**
**C.Naxçıvanski adına**
**Hərbi Lisey**

# Hərbçilər arasında 33-cü dünya çempionatının təşkilat komitəsinin sonuncu iclası keçirilib

Moskvada hərbçilər arasında güləş üzrə 33-cü dünya çempionatının təşkilat komitəsinin yarışlara hazırlıqla bağlı sonuncu iclası keçirilib.

Rusiya paytaxtındakı Mərkəzi Ordu İdman Klubunda keçirilən toplantıda Beynəlxalq Hərbi İdman Şurasının (CISM) rəsmi nümayəndəsi Kim Hyun Soo, təşkilat komitəsinin sədr müavini Roman Kudryavçev, hakimlər briqadasının sədri Vladimir Qriqoryev, Dünya Güləş Birliyinin (UWW) rəsmi nümayəndəsi Uve Manz, CISM-in güləş komitəsinin sədri Marko Kopella, təşkilat komitəsinin vitse-sədri Oleq Parxomenko, CISM-in Qafqaz, Qara dəniz və Balkanlar üzrə koordinatoru, ehtiyatda olan polkovnik Nevzat Varol, yarışlarda iştirak edəcək komandaların rəhbər heyətinin üzvləri, hakimlər və məşqçilər iştirak ediblər.

Təşkilati məsələlərə cavabdeh olan Rusiya təmsilçisi Oleq Parxomenko çıxış edərək yarışlar müddətində yaradılacaq şərait və davranış qaydaları ilə komanda rəhbərlərini tanış edib.




Sonra CISM-in güləş komitəsinin sədri Marko Kopella yarışların təşkilindən, əhəmiyyətindən və təmsil etdiyi qurumun məramından, gələcəkdə keçirilməsi planlaşdırılan turnirlərdən danışıb, idmançılara uğurlar arzulayıb.

Təşkilat komitəsinin iclasında yarışlarla bağlı bir sıra məsələlər müzakirə edilib və komanda rəhbərlərinin sualları cavablandırılıb.

Toplantıdan sonra texniki heyətin və hakimlərin yarış qabağı iclası da keçirilib, püşkatma olub.

Çempionatda ölkəmizi MOİK komandasının sərbəst və yunan-Roma güləşi yarışlarının hər biri üzrə 9, qadınların mübarizəsində isə 3 idmançısı təmsil edir.

Azərbaycan komandasının rəhbəri MOİK-in rəisi polkovnik-leytenant Rəşad Quliyevdir.

İyirmi iki ölkənin 350-yə yaxın nümayəndəsinin qatıldığı dünya çempionatı mayın 20-dək davam edəcək.

Mayın 15-də dopinq nəzarətindən və idmançıların çəkilərinin dəqiqləşdirilməsindən sonra yarışlara start veriləcək. Yarışların ilk günündə beş çəki dərəcəsi üzrə kişi və qadın idmançılar döşək üzərinə çıxacaqlar.

# Uşaqlar nə gözəl düşünür!

Bu yaxınlarda 2017-ci ildə hazırlanmış bir reportaj məni həm düşündürdü, həm də fərəhləndirdi. Bir zabit aprel döyüşlərində şəhid olduqlarından danışırdı. Onun fikirləri məni də duyğulandırdı. Reportajda bildirilirdi: "Döyüşlərdə şəhidimiz, yaralımız və qəhrəmanlarımız oldu. Ölənimiz olmadı". Nə mənada?

Təbii ki, bu sözlər Azərbaycan əsgərini simvolizə edən və ona yaraşan hərəkətlərdir.

Mənim, hər bir azərbaycanlı gəncin torpaqla bağlı fəlsəfəsi fərqlidir. Torpaq dedikdə Mübarizləri, Çingizləri, Eminləri,... anırıq. Torpaq uğrunda torpaq olanlara ehtiramımız sonsuzdur.

Qazandığımız hər bir uğurun, qələbənin əsas meyarları şəhidlərdir. Hər birimizi birləşdirən yeganə ortaq ağrı var: Qarabağ həsrəti. Dünyaya göz açan körpələr öz doğma yurdlarına həsrətlə böyüyürlər. Bilirik ki, bu həsrətin sonuna az qalıb. Hər biri yaxın vaxtlarda öz yurduna geri dönəcək.

Sosial şəbəkələrdə uşaqlara öz məktublarını əsgərlərə çatdırmaq üçün şərait yaradılıb. Məktubların əksəriyyətində "Möhkəm dayanın!", "Torpaqlarımızı işğaldan azad edin!" - kimi qürurverici ricalar var, bir də Vətənin keşiyində durduqlarına görə minnətdarlıq var, gələcəkdə onlar kimi səngərlərdə xidmət edən Azərbaycan əsgəri olacağına əminlik var. 5-ci sinif şagirdi yazır: "Əziz əsgərlərimiz, sizinlə həmişə qürur duyuram. Siz Azərbaycanın qorxmaz, mətin oğullarısınız. Biz sizin sayənizdə azad, şən yaşayırıq. Səngərlərdə düşmənlə üz-üzə olmağınız bizi düşündürür. Azərbaycan əsgəri!"

Azərbaycanın belə gələcək əgərləri, övladları böyüyür.

**Hüsniyyə İDRİSOVA,**
**BSU-nun I kurs tələbəsi**

Kapitan Əlirzayev Rza Kamil oğluna verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

---

Baş leytenant Ağamalıyev Röyal Elşad oğluna verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

---

Gizir Kərimli Gündüz Şükür oğluna verilmiş gizirin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik
Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
leytenant
Orxan HÜSEYNLİ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 315
Nüsxə 3525